# *YUBİLEY*



***May ayının 10-da Azərbaycan Respublikasının prezidenti, dünya şöhrətli siyasi xadim, xalqımızın sevimli lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 80 illik yubileyi tamam olur***

*Azərbaycan Respublikasının prezidenti möhtərəm cənab Heydər Əliyevə!*

***Hörmətli prezident!***

***Sizi - Azərbaycanın müasir tarixində özünəməxsus yeri olan görkəmli dövlət xadimini anadan olmağınızın 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirik.***

***Sizin zəngin fəaliyyətiniz XX əsrin 50-ci illərindən başlayaraq xalqımızın taleyi ilə sıx bağlı olmuşdur. Siz istər 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edərkən, istərsə də 1982-1987-ci illərdə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən doğma respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatının çiçəklənməsi yolunda böyük taleyüklü işlər həyata keçirmiş, Vətənimizi öncüllər sırasına çıxarmısınız.***

***1993-cü ildə müstəqil Azərbaycan Respublikasının prezidenti seçilmiş,ötən müddətdə Vətənimizin tərəqqi və dirçəlişi, milli dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması istiqamətində uğurlu siyasət yürütmüş, Azərbaycanı bir sıra beynəlxalq tədbirlərdə uğurla təmsil etmisiniz.***

***Siz çoxşaxəli fəaliyyətiniz dövründə Azərbaycanda iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin, ədəbiyyatın və başqa sahələrin inkişafını həmişə diqqətdə saxlamısınız. Milli Məclisdə uzun müzakirələrdən sonra qəbul edilmiş «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununu təsdiqləməyiniz (29 dekabr 1998) və həmin qanunun tətbiq edilməsi barədə fərman imzalamağınız (12 mart 1999) da Sizin milli mədəniyyətimizin mühüm tərkib hissəsi olan kitabxana işinə yüksək qiymətinizin parlaq təzahürüdür. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasındakı çıxışınızda: «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir» kimi dəyərli sözlər söyləməyiniz Sizin bu sahəyə xüsusi diqqətinizi nümayiş etdirir.***

***Əziz Heydər Əlirza oğlu! Sizi çoxsaylı kitabxana işçiləri adından 80 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və müstəqil Azərbaycanımızın dünya dövlətləri sırasında layiqli yer tutması naminə uğurlar arzulayırıq!***

*Bakı Dövlət Universiteti*
*Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivi*
*«Kitabxanaşünaslıq və biblioqrafiya»*
*jurnalının redaksiya heyəti*